**Avrasya İncelemeleri Dergisi**
***Journal of Eurasian Inquiries***

İSTANBUL UNIVERSITY PRESS

Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 11, 1 (2022): 133-135
DOI: 10.26650/jes.2022.008

Yayın Tanıtımı / *Book Review*

# Azerbaycan Düşünce Tarihine Kapsamlı Bir Bakış

## A Comprehensive View of Intellectual History of Azerbaijani

**Ali Asker. "*Azerbaycan Düşünce Tarihi: Evreler, Olaylar ve Şahsiyetler (19. Yüzyılın Ortaları-20. Yüzyılın Başları)*". Ankara: Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, 2021, ISBN: 978-975-17-5013-6**

Aynurə Səfərova[1]




[1]**Sorumlu yazar/Corresponding author:** Aynurə Səfərova, (Dr.),
Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Aparıcı Elmi İşçisi, Azərbaycan
E-posta: aynura.safarova1@gmail.com
ORCID: 0000-0002-2198-9116

**Başvuru/Submitted:** 07.03.2022
**Kabul/Accepted:** 15.03.2022

**Atıf/Citation:** Səfərova, Aynurə. Azerbaycan Düşünce Tarihine Kapsamlı Bir Bakış. [Ali Asker'in Azerbaycan Düşünce Tarihi: Evreler, Olaylar ve Şahsiyetler (19. Yüzyılın Ortaları-20. Yüzyılın Başları), adlı eserinin tanıtımı]. *Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries* 11, 1 (2022): 133-135. https://doi.org/10.26650/jes.2022.008

**Anahtar Kelimeler:** Azərbaycan Düşüncə Tarixi, Azərbaycan Xalq Cümhuriyyəti, Milli Kimlik Şüuru, Ali Asker
**Keywords:** Intellectual History of Azerbaijan, Azerbaijan Democratic Republic, National Identity, Ali Asker

2021-ci ilin sonlarında Türkiyə Cümhuriyyətində "Azərbaycan düşüncə tarixi" adlı nəfis bir kitab çapdan çıxdı. Kitabın redaktoru Karabük Universitetinin professoru Ali Askerdir. Kitab Türkiyə Mədəniyyət və Turizm Nazirliyinə bağlı olan Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının maddi dəstəyi ilə işıq üzü görmüşdür. Kitaba ön sözü Türkiyənin Mədəniyyət və

This work is licensed under Creative Commons Attribution-NonCommercial 4.0 International License

Turizm naziri Mehmet Nuri Ersoy, təqdimat yazısını Yurtdışı Türkler ve Akraba Toplulukları qurumunun rəhbəri Abdullah Eren yazmışdır. Qeyd edildiyi kimi, Türkiyə və Azərbaycan arasındakı qarşılıqlı münasibətlərin kökündə tarixdən gələn eyni soya bağlılıq: eyni dil, din, ortaq mədəniyyət, qan və gen bağlarının olmasıdır. Bu mənada XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan düşüncə tarixini əks etdirən hadisələri öyrənmək; həmin dövrdə Azərbaycan fikir və düşüncə dünyasını formalaşdıran və inkişaf etdirən şəxsiyyətlərin, dövlət adamlarının, mütəfəkkir şair və yazıçıların həyatını, onların gördüyü böyük işləri Türkiyədə tanıdılmasını hədəfləyən kitabın yazılması, elm və mədəniyyət ictimaiyyətinə təqdim olunması vacib olduğu qədər də əhəmiyyətlidir. Ötən əsrin əvvəllərində Anadolu və Qafqaz Türklərinin inkişafı yolunda böyük işlər görən, hər iki ölkənin ictimai, siyasi və mədəni həyatında önəmli yer tutan böyük mütəfəkkir və ədiblərin apardığı mücadiləni və mübarizəni öyrənmək, onların həyatını, yaradıcılığını araşdırmaq, təbliğ etmək mənəvi borcdur.

İki cilddən ibarət olan kitabda ümumilikdə 29 bölüm yer alır. Kitabın birinci cildində Azərbaycanda milli kimlik şüurunun ortaya çıxması və millətləşmə prosesləri, mərhələlər və hadisələr anlatılmışdır. Əsasən həmin dönəmin vacib məsələlərindən sayılan maariflənmə, kimlik şüuurunun formalaşması və inkişafından, demokratik cümhuriyyətin quruluşu və süqutundan bəhs edilmişdir.

Kitabın ikinci hissəsində həmin dönəmin parlaq şəxsiyyətləri, ədəbi və siyasi fikir həyatında böyük xidmətləri olan insanların fəaliyyəti haqqında əhatəli məlumat verilmişdir. Böyük mütəfəkkir Mirzə Fətəli Axundzadədən başlayaraq XIX əsrin sonu-XX əsrin ortalarınadək olan zaman kəsimində yaşamış xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev də daxil olmaqla, böyük maarifçilər – Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu; dövlət liderləri Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Üzeyir bəy Hacıbəyli; böyük şair Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Cəlil Məmmədquluzadə, Mirzə Bala Mehmetzadə, Ömər Faiq Nemanzadə, Əhməd Cavad, Cəfər Cabbarlı, Hüseyn Cavid kimi ölməz şəxsiyyətlərin həyat və yaradıcılığından, millətin oyanışı və xalqın maariflənməsi yolunda gördüyü işlərdən bəhs edilmişdir.

Adlarını qeyd etdiyimiz böyük ədiblərin və dövlət adamlarının həyatını və yaradıcılığını, o cümlədən həmin dövrdə gedən siyasi-ictimai prosesləri araşdıran bölüm yazarlarından Ali Askerin, Kamil Vəli Nərimanoğlunun, Mübariz Süleymanlının, Nesrin Sarıahmetoğlunun, İradə Bağırovanın, Kamran İsmayılovun, Nəsib Nəsiblinin, Vaqif Sultanlının, Şəlalə Məmmədovanın, Yavuz Akpınarın, Nazim Muradovun, Okan Yeşilotun, Alaattin Ucanın, Fahri Sakalın, Fərhad Cabbarovun, Aydın Balayevin, Cəmil Həsənlinin, Firdovsiyyə Əhmədovanın, Rafael Əhmədlinin, Mahirə Askerin, Ali Erolun, Mehdi Gəncəlinin, Elxan Nəcəfovun, İrfan Murat Yıldırımın, Asif Rüstəmlinin, Şamil Sadıqovun adlarını qeyd etməliyik.

Kitabın sonunda həmin dövrün siyasi hadisələrini və dönəmin şəxsiyyətlərini əks etdirən 100 ədəd fərqli fotoşəkil və rəsm verilmişdir.

Kitabda milli kimlik inşasının sosial-iqtisadi və fikri təməlləri mövzusu, XX əsrin əvvəllərində

Azərbaycanda siyasi partiyalar, azadlıq düşüncəsi və xarici siyasət, milli məfkurə və dövlət inşası, milli kimlik inşasında dil ünsürü və dil siyasəti, Azərbaycan Xalq Cümhuriyyəti dönəmində ədəbiyyat, Azərbaycan düşüncə tarixində ədiblərin rolu və fəaliyyəti, Azərbaycan düşüncə sisteminin inkişafında teatrın rolu, Cümhuriyyətin süqutu və Sovet düşüncə sistemi və digər bu kimi önəmli tarixi hadisələrin araşdırılması mövzularına xüsusi önəm verilmişdir.

Kitabın redaktoru, professor Ali Asker giriş yazısında hər bir bölümdən ayrı ayrı bəhs edərək əsəri bütöv şəkildə təqdim etmişdir. Giriş yazısında, habelə Azərbaycan dilində yazılan bölümləri Türkiyə türkcəsinə uyğunlaşdıranlara, kitabın redaktə, korrektə işlərinə və digər texniki işlərlə bağlı yardım edən bilim insanlarına ayrıca təşəkkür etmişdir.

2021-ci il elmi yayın həyatının önəmli hadisələrindən biri kimi iki cildlik bu kitabın nəşri kollektiv əməyin məhsulu kimi işıq üzü görmüşdür. Əminik ki, Azərbaycan siyasi düşüncə tarixini əks etdirən bu əsər ədəbi və siyasi düşüncə insanlarının yaradıcılığını özündə əks etdirməklə çox dəyərli bir mənbəyə çevriləcəkdir.

Qənaətimizcə, bundan sonra da Azərbaycanda aydınlanma tarixini özündə əks etdirən çox araşdırmalar aparılacaq, amma “Azərbaycan düşüncə tarixi” kitabı tədqiqatçıların daimi istinad mənbəyi olacaq.